5. Qədirova N.A.G. Cənubi Qafqazda son tunc və erkən dəmir dövrünə aid döyüşçü qadın qəbirləri (Qafqaz amazonları: miflər və arxeoloji faktlar) // Arxeologiya və Etnoqrafiya. Tarix və onun problemləri. № 4. Bakı; Nafta-Press, 2014, 301-310 s.
6. Quliyev F. E. Azərbaycanın kurqan qəbirlərində at dəfni. Bakı: Elm, 2008, 300 s.
7. Rüstəmov C., Muradova F. Daşsalahlı kurqanları // Azərbaycan arxeologiyası. cild 17 № 1. Bakı: Xəzər Universiteti, 2014, 25-37 s.

## БРОНЗОВОГО И РАННЕГО ЖЕЛЕЗНОГО ВЕКА КУРГАНЫ БОРЦЫ АЗЕРБАЙДЖАН

***Мехтиева Хагигат Шаадат***

***Резюме***

В статье кургана захоронения памятника. По богатству курганов в разных частях конструкции и оборудований различны.

Были курганы солдат, особенно один настолько богат, наряду с военными из-за кургана, когда он был поставлен на лошади скелетов. Такие курганы Довшанлы, Учтепе, II Рловдаг, Борсунли и другие например могиллы.

## BRONZE AND EARLY IRON AGE BURIAL MOUNDS FIGHTERS AZERBAIJAN

***Mehdiyeva Hagigat Shaadat***

***Summary***

The article is about barrow burial monument. According to the riches of the riches of the mounds in different parts of the structure and equipment of different.

There were mounds of a soldier. Especially one so rich, along with the military because of the barrow when it was put on a horse skeletons. Such mounds Dovshanly, Uchtepe, II Plovdag, Borsunlu and others for example graves.

***Rəyçi:t.ü.f.d. Allahverdiyeva Gültəkin***
***BDU Qazax filalının İctimai elmlər kafedrasının 10 noyabr 2021-ci il 03 saylı protokolu***
***Daxil olduğu tarix 16 noyabr 2021-ci il***

**UOT:94(479.24)**

## QƏCDUVAN MƏĞLUBİYYƏTİNDƏN SONRA ZƏHİRƏDDİN BABURUN SƏFƏVİLƏRLƏ MÜNASİBƏTLƏRİNƏ DAİR

***t.ü.f.d. Məmmədova Yeganə Ehsan qızı***
***Gəncə Dövlət Universiteti***
***yegana-mammadova@mail.ru***

**Xülasə:** *Mövcud məqalə Qəcduvan döyüşündən sonra Zəhirəddin Baburun səfəvilərlə münasibətlərinin öyrənilməsinə həsr olunmuşdur. Belə ki, bu döyüşdən sonra Baburla Şah I İsmayıl arasında olan alyans pozulur. Lakin Babur səfəvilərlə münasibətlərin tamamilə kəsilməsində maraqlı deyildi və bu səbəbdən də əlverişli şərait yaranan kimi onlarla münasibətləri bərpa etməyə çalışır. Bununla belə, Bəlx və Qəndəharla bağlı Baburla səfəvilər arasında narazılıq yaranır. Şimali Hindistanı fəth etdikdən sonra Babur Səfəvilərlə münasibətləri bərpa edir və səfirliklər mübadiləsi edilir.*

*Onu da qeyd etmək lazımdır ki, bu dönəm Baburun səfəvilərlə münasibətləri ətraflı şəkildə öyrənilməmişdir və bu məqalə həmin boşluğun aradan qaldırılmasına xidmət edir.*

**Açar sözlər:** Şah I İsmayıl, Zəhirəddin Babur, ittifaq, Qəcduvan, əlaqələr

**Ключевые слова:** Шах Исмаил I, Захиреддин Бабур, союз, Гиждуванская битва, отношение

**Keywords:** Shah Ismail I, Zahireddin Babur, union, Gijduvan battle, relationship

Şah I İsmayılla Zəhirəddin Babur arasında Mərv döyüşündən sonra alyans geniş şəkildə, müxtəlif səviyyələrdə bir çox tədqiqatçı tərəfindən araşdırılmışdır. Lakin məlum olduğu kimi, müttəfiqlər üçün uğursuz olan Qəcduvan döyüşü (1512) bu alyansın ləğvinə səbəb olur. Belə ki, h. 918-ci ilin şaban / 1512-ci ilin oktyabr ayında qızılbaş ordusu Buxara istiqamətində hərəkət edir və güclü istehkamlardan olan Qəcduvan qalasını mühasirəyə alır. Bu ərazilərə yaxşı bələd olan Zəhirəddin Babur və Xacə Mahmud Sağərç Səfəvi sərkərdəsi Nəcmi-Saniyə soyuqların düşdüyünü və ərzağın tükəndiyini bildirib, mühasirəni dayandırmağı və geri çəkilərək qışı Qərşi yaxud da Xəzar qalasında keçirməyi, yürüşün yazda davam etdirilməsini məsləhət görürlər. Lakin Nəcmi-Sani onu müşayət edən qızılbaş əmirlərinin də onunla eyni fikirdə olmamalarına rəğmən inadkarlıq göstərərək qalanın mühasirəsini davam etdirir. Qızılbaş ordusunda ərzaqla bağlı yaranan ciddi çətinliklər özbək liderləri Übeydulla xan, Məhəmməd Teymur sultan və Canıbəy sultan 60 minlik ordu ilə Qəcduvan ətrafına gəlirlər. Zəhirəddin Babur və Xacə Mahmud Sağərçi Nəcmi-Saniyə döyüşə girməməyi məsləhət görsələr də, o, bu məsləhətə qulaq asmır və döyüşə girir. Döyüşün nəticəsi isə qızılbaş ordusu üçün son dərəcə fəlakətli olur. Belə ki, Qəcduvan döyüşündə ağır məğlubiyyətə uğrayırlar və Nəcmi-Sani özbəklərə əsir düşür. Döyüş zamanı ehtiyatda dayanan Zəhirəddin Babur döyüşə girmədən tabeliyində olan hissələrlə Hisar Şadmana doğru geri çəkilir. Qeyd etmək lazımdır ki, sonralar Baburun bu hərəkəti dəfələrlə hər iki dövlət arasında münaqişəli situasiyalar yaranan zaman xatırlanmışdır. Məsələn, Baburun oğlu Nəsirəddin Humayun Hindistandakı əfqanların lideri Şir-xan Suri ilə mübarizədə məğlub olub, qaçaraq Səfəvilər dövlətinə sığındığı zaman həmin hadisə bir daha xatırlanmışdır.

Qeyd etmək lazımdır ki, Qəcduvan məğlubiyyətindən sonra Moğol dövlətinin yaradıcısının səfəvilərlə münasibətləri demək olar ki, tamamilə diqqətdən kənarda qalmışdır. Həmçinin, mənbələrdə də Qəcduvan məğlubiyyətindən sonra Şah I İsmayılla Zəhirəddin Babur arasındakı münasibətlərə dair məlumatların azlıq təşkil etdiyini qeyd etmək lazımdır. Pakistan tarixçisi Riyazül İslam özünün "Hind-İran əlaqələri"ndə Baburun bu dövrdə Səfəvilərlə münasibətlərinə geniş yer ayırsa da, lakin o, demək olar ki, əsasən mənbələrdən toplamış olduğu məlumatları araşdırmadan təkrar etməklə kifayətlənmişdir (5). Qəcduvan məğlubiyyətindən sonra Baburun Səfəvilərlə münasibətlərinə son dövr vətən tarixşünaslığında "Aləm ara-yi Səfəvi" əsərinin məlumatları əsasında Şah I İsmayıl dövrünü tədqiq etmiş Namiq Musalı da toxunmuşdur (4). Qeyd etmək lazımdır ki, bu mövzu ilə bağlı mənbələrdə də geniş məlumatlara rast gəlinmir. Xondəmirin "Həbib-üs siyər" əsərində XVI yüzilin ikinci onilliyinin sonlarında Qəndəharla bağlı Baburla Şah I İsmayıl arasında yaranmış olan münaqişədən bəhs olunur. Baburun hakimiyyətinin sonlarında Səfəvilərlə münasibətlərinə dair əsas mənbə onun özünün xatirələrində verilmişdir. Onu da qeyd etmək lazımdır ki, bir çox tədqiqatçılar Qəcduvan məğlubiyyətindən sonra Şah I İsmayılla Zəhirəddin Babur arasında heç bir əlaqənin olmadığını irəli sürürlər. Lakin mənbələrdə olan ötəri məlumatlara əsasən bunun heç də belə olmadığını müəyyən etmək mümkündür. Ən əsası isə Babur öz xatiratında Şimali Hindistanı fəth etdikdən sonra Səfəvilərlə diplomatik münasibətlərin bərpa olunması haqda məlumat vermişdir. Məhəmməd Qasım Hunduşah Firiştə özünün "Tarixi-Firiştə" əsərində "Baburnamə"dən götürdüyü məlumatları təkrar etmişdir.

Halbuki, Babur səfəvilərlə qırılmış münasibətləri bərpa etməyə çalışmışdır. Belə ki, o, qohumu Xan Mirzənin vasitəçiliyilə Şah İsmayılla əlaqə yaradıb, Qəcduvan döyüşündən sonra Səfəvilərlə qırılmış əlaqələri yenidən bərpa etməyə cəhd göstərir.

Beləliklə, mövcud elmi məqalədə məhz Baburun Qəcduvan məğlubiyyətindən sonra hakimiyyətinin sonuna kimi səfəvilərlə münasibətlərinin araşdırılmasına həsr olunmuşdur.

Yuxarıda qeyd olunduğu kimi Qəcduvan məğlubiyyəti Şah I İsmayıl və Zəhirəddin Babur arasındakı hərbi alyansın iflasına gətirib çıxardı. Özbək xanları qazandıqları qələbədən ruhlanaraq, geri çəkilən qızılbaşların ardınca Xorasana hücum edirlər. Burada olan qızılbaş qüvvələri özbək xanlarına müqavimət göstərə bilmirlər və nəticədə 1513-cü ilin yazında Xorasanın əksər ərazisi özbəklərin əlinə keçir (4, 219). Təbii ki, Səfəvi hökmdarı Xorasanın itirilməsilə barışmaq niyyətində deyildi. Qoşunla buraya yollanan Şah I İsmayıl qısa müddət Xorasanda ərzində itirilmiş mövqelərini bərpa edir.

Qəcduvan məğlubiyyətindən sonra Qunduza çəkilmiş Babur Xan Mirzənin vasitəçiliyi ilə Şah I İsmayılla yenidən əlaqə yaratmağa cəhd edir. O, Qəcduvan döyüşündə baş verənlər üçün üzrxahlıq və təəssüfünü izhar edərək, Nəcmi-Saninin lovğalığının və səriştəsizliyinin məğlubiyyətə səbəb olduğunu bildirir (4, 221). Buradan bir daha aydın olur ki, Babur Şah I İsmayılla əlaqələrin bərpa olunmasında maraqlı olmuş və heç də bəzi tədqiqatçıların hesab etdikləri kimi Səfəvilərlə münasibətlərin kəsilməsini istəməmişdir. Çox güman ki, Babur ata-baba yurdlarının geri qaytarmaq ümidlərini tamamilə itirməmişdi. Eyni zamanda, Şah I İsmayıl da Baburla münasibətlərin tamamilə korlanmasını istəmirdi. Çünki, o, Baburun Xan Mirzə vasitəsilə etdiyi açıqlamalarına təmkinlə yanaşır və Xan Mirzəyə layiqli hədiyyələr verir (4, 221). Lakin bununla belə əvvəlki müttəfiqlik münasibətləri bərpa olunmur.

1514-cü ilin sonuna kimi Qunduzda və ya ona yaxın olan yerlərdə qalan Babur (3, 0016) çox güman ki, ata-baba yurdlarını geri qaytarmaq üçün yeni bir əlverişli fürsətin yaranmasını gözləyirdi. Lakin daha belə bir imkan yaranmır.

Son nəticədə ata-baba yurdunu geri qaytarmağın mümkünsüzlüyünü anlayan Zəhirəddin Babur bundan sonra əsas diqqətini Hindistana – feodal çəkişmələrinin zəiflətmiş olduğu Dehli sultanlığına tərəf çevirir və bir-birinin ardınca buraya yürüşlər təşkil etməyə başlayır. 1526-cı ilə kimi davam edən yürüşlər sonda Dehli sultanlığının süqutu ilə nəticələnir.

1512-ci il Qəcduvan məğlubiyyətindən sonra Baburun diqqətinin əsasən Hindistana yönəlməsinə baxmayaraq, o, səfəvilərlə münasibətlərin davam etdirilməsində maraqlı idi. Belə ki, Zəhirəddin Babur Şimali Hindistanı fəth etməsinə baxmayaraq, Məvarənnəhrin geri qaytarılmasında maraqlı idi. Ümumiyyətlə, demək olar ki, bütün Moğol hökmdarları ata-baba yurdlarını geri qaytarmaq istəyində olmuş və bunun üçün lazımi şərait yaranan kimi istifadə etməyə çalışmışlar. Digər tərəfdən isə özbək dövləti düşmən mövqedə qalmaqda davam edirdi. Buna görə də Babur səfəvilərlə dostluq münasibətlərinnin saxlanılmasına çalışırdı və bu məqsədlə Hindistanı fəth etdikdən sonra Xorasanda və İranda bəzi yaxın adamlarına hədiyyələr göndərir (2, c. II, 345). A. Fərzəliyev və R. Məmmədova düzgün olaraq qeyd edirlər ki, Baburun İrandakı xeyirxahlarına qarşı bu hörmət jesti onun özünün ən qüdrətli qonşusu ilə dostluq münasibətində qalmasını əks etdirirdi (6, 57).

Lakin bununla belə, XVI yüzilliyin ikinci onilliyinin sonuna doğru Zəhirəddin Baburun səfəvilərlə münasibətlərində gərginlik də yaşanır. Bunu "Aləm-ara-yi Səfəvi" əsərinin verdiyi məlumatlar təsdiq edir. Belə ki, Bəlxlə bağlı Baburla səfəvilər arasında gərginlik yaranır. Burada cərəyan edən hadisələrdən Babur yararlanaraq şəhəri öz tabeliyi altına alır ki, bu da Şah I İsmayıl tərəfindən naraszılıqla qarşılanır. Bəlx problemindən başqa, Baburla səfəvilər arasında Qəndəharla əlaqədar da gərginlik yaşanır. Hindistanla Xorasan arasnda mühüm əlverişli strateji-coğrafi mövqeyə malik olan Qəndəhar qalası ilə eyni adlı vilayətə çoxları sahib olmaq istəyirdi. Bəhs olunan zaman Qəndəhar sabiq Teymuri sərkərdəsi Əmir Zünnun Ərğunun oğlu Şüca bəyin tabeliyi altında idi və o, Şah I İsmayıldan vassal asılılığını qəbul etmişdi. Zəhirəddin Babur isə Məhəmməd Bağı xan Cağatay adlı şəxsin xəyanəti sayəsində Qəndəharı tabeliyi altına almağı bacarır. Bu bir-birinin ardınca baş verən hadisələr Səfəvi şahının qəzəbinə səbəb olur və Şah I İsmayılın göstərişilə Zəhirəddin Babura

narazılıq ifadə edilən məktub göndərilir. Həmin məktubda Babura bu kimi hərəkətlərin “dostluq yoluna” uyğun olmadığı bildirilir və ona bu cür gərginlik yaradan hərəkətlərdən çəkinmək tövsiyə edilirdi. Qeyd olunduğu kimiBabur səfəvilərlə münasibətlərin gərginləşməsində maraqlı deyildi. Buna görə də qardaşı Nasir Mirzənin məsləhətilə Şah I İsmayılla aralarındakı gərginliyi aradan qaldırmağa, münaqişəni nizamlamağa çalışır. O, səfəvi şahına yazdığı cavab məktubunda öz hərəkətlərinə bəraət qazandırmağa çalışır, Bəlx və Qəndəhar qalaları üzərində nəzarəti ələ almasına həmin bölgələrin Səfəvilərlə Teymurilərin ümumi düşmənləri olan Şeybanilərə qarşı daha müdafiəsini təmin etməklə bağlı olduğunu bildirir, aralarındakı ittifaqa sadiq qaldığını vurğulayırdı (4, 226). Bir sözlə, Qəjduvan məğlubiyyətindən sonra Baburla Şah I İsmayıl arasında ziddiyyətlər yaranmış olsa da, bu ziddiyyətlər ciddi münaqişə səviyyəsinə qaldırılmır. Bunun əsas səbəbi isə birincinin səfəvilərlə münasibətlərə ehtiyacının olması ilə bağlı idi.

Şimali Hindistanı fəth etdikdən az sonra Babur I Şah İsmayıldan sonra hakimiyyətə gəlmiş Təhmasibi təbrik etmək məqsədilə Xacə Nizaməddin Əsəd Candar ağa adlı elçisini Səfəvilər dövlətinə göndərir. Xacə Əsəd 1526-cı ilin sonlarında Süleyman ağa Türkman ilə Hindistana qayıdır (1, 350-351). Səfəvi elçisi Süleyman ağa Türkman 1527-ci ilin yazına qədər Hindistanda qalır. Belə ki, 1527-ci ilin martında Racput hakimi Rana Sanqa ilə Baburun böyük oğlu və vəliəhdi Humayun Mirzənin arasında baş vermiş Kanva döyüşündə iştirak edir. Bundan təxminən iki ay sonra Babur yenidən Xacə Əsədi hədiyyələrlə I Şah Təhmasibin yanına göndərir, Süleyman ağa isə onunla birlikdə Hindistanı tərk edir (41, 376). Beləliklə, Qəcduvan döyüşündən sonra kəsilmiş olan diplomatik münasibətlər məhz Baburun təşəbbüsü ilə bərpa edilir. Baburun sarayında çox güman ki, səfəvilərin daimi nümayəndəsi olmuşdur. Belə ki, Baburun “Baburnamə”sinə əsasən onun h. 936-cı ilin rəbiüləvvəl /m. 1528-ci ilin noyabrında vermiş olduğu ziyafətdə digər dövlətlərin elçiləri ilə bərabər qızılbaş elçisinin də iştirak etdiyini yazır (2, c. II, 399).

İstər fars dilli hind, istərsə də Səfəvi mənbələrində Baburun həyatının son iki ilində Səfəvilərlə diplomatik münasibətləri ilə bağlı heç bir məlumat olmasa da, “Baburnamə”nin məlumatlarına əsasən onun qonşu dövlətdə baş verən hadisələrlə yaxından maraqlanmasını müəyyən etmək olar. Məsələn, o, Kabul hakimi oğlu Kamran Mirzədən özbəklərlə müharibə vəziyyətində olan səfəvilərin işləri ilə maraqlanmağı, bu haqda məlumat toplamağı xahiş etmişdi (2, c. II, 347).

Xan Mirzədən sonra Bədəxşanda hakim olan Humayun Mirzə 1528-ci ildə I Şah Təhmasibin özbək hakimlərinin birləşmiş qüvvələri üzərində Cam yaxınlığında qazanmış olduğu qələbə ilə bağlı atasına geniş hesabat göndərir. Digər tərəfdən isə Təhmasib özü qazanmış olduğu bu qələbə ilə bağlı Zəhirəddin Babura rəsmi məlumat göndərmək məqsədilə Həsən Çələbi adlı şəxsin başçılığı ilə Hindistana nümayəndə heyətinin göndərilməsinə sərəncam verir (2, c. II 403). Həsən Çələbi Dehliyə gəldikdən iki həftə sonra Babur tərəfindən qəbul edilir. O, qısa bir müddət ərzində Hindistanda qaldıqdan sonra 1529-cu ilin yayında Əbdülməlik Qorçi adlı bir şəxslə geriyə, öz ölkəsinə qayıdır (2, c. II 405).

Beləliklə, Baburun özünün vermiş olduğu məlumatlara əsasən 14 illik fasilədən sonra səfəvilərlə diplomatik münasibətlər onun özünün təşəbbüsü ilə bərpa edilir. Bu da onun Səfəvilərlə münasibətlərə yüksək dəyər verdiyini sübut edir

***Ədəbiyyat***

1. Бабур-наме. Записки Бабура/Пер. М.Салье. Таш.:, 1958, 530 с.
2. Kazı Zahireddin Mühemmed Babur, Vəkayi, II ciltte, Ankara TTK Basımevi, 1987
3. Hikmət Bayur – Teymur oğulları və Babur haqqında tarixi özet – ön söz, Kazı Zahireddin Mühemmed Babur, Vəkayi, Ankara, 1987
4. Musalı N.S. I Şah İsmayılın hakimiyyəti (“Tarix-i aləm-ara-yi Şah İsmayıl” əsəri əsasında). Bakı: “Elm və təhsil”, 2011, 482 c.

5. Riyazül İslam. Tarix-e rəvabet-e İran-o Hind (dər doure-yi Səfəviye-o əfşariyye) /Tərcüme: Məhəmmədbağer Aram, Abbasqulu Qaffari, Tehran, Enteşarate Əmir Kəbir, 1373, 401 s.
6. Фарзалиев А., Мамедова Р. «Сефевиды и Великие Моголы в мусульманской дипломатике», СПб.: Филологический факультет СПбГУ, 2004, 228 с.

## ОБ ОТНОШЕНИЯХ ЗАХИРИДДИНА БАБУРА С СЕФЕВИДАМИ ПОСЛЕ ПОРАЖЕНИЯ ПРИ ГИЖДУВАНЕ

***Мамедова Егана Ехсан кызы***

***Резюме***

Данная статья посвящена изучению отношений Захириддина Бабура с сефевидами, после битвы при Гиждуване. Следует отметить, что после этой битвы союз между Бабуром и шахом Исмаилом I нарушается. Бабур не был заинтересован в полном разрыве отношений с сефевидами, и по этой причине, стремился восстановить отношения с ними, как только для этого будут созданы подходящие условия. Следует также отметить, что в этот период отношения Бабура с сефевидами не были подробно изучены, и эта статья служит устранению этого разрыва.

## ON THE RELATIONSHIP OF ZAKHIRIDDIN BABUR WITH THE SAFAVIDS AFTER THE DEFEAT AT GIJDUVAN

***Mammadova Egana Ehsan***

***Summary***

This article is devoted to the study of the relationship of Zakhiriddin Babur with the Safavids, after the battle of Gijduvan. It should be noted that after this battle, the alliance between Babur and Shah Ismail I is broken. Babur was not interested in completely breaking off relations with the Safavids, and for this reason, sought to restore relations with them as soon as suitable conditions were created for this. It should also be noted that during this period, Babur's relations with the Safavids were not studied in detail, and this article serves to bridge this gap.

***Rəyçi: dos. E.M. Paşayeva***
***Ümumi tarix kafedrasını 31 may 2021-ci il tarixli iclasın 05 saylı protokolu***
***Daxil olma tarixi 16 noyabr 2021-ci il***

**UOT:94.(479.24)**

## HEYDƏR ƏLİYEVİN NAXÇIVAN MUXTAR RESPUBLİKASINA RƏHBƏRLİYİ DÖVRÜNDƏ AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNİN İNKİŞAFI (1991-1993)

***Namazova Elminaz Məhərrəm qızı***
***Gəncə Dövlət Universiteti***
*elminaznamazovae@mail.ru*

**Xülasə**: *Azərbaycan-Türkiyə əlaqələri ulu öndər Heydər Əliyevin dediyi kimi "Bir millət iki dövlət" tezisinə əsaslanır.*

*1991-ci il sentyabrın 3-də Heydər Əliyev Naxçıvan Ali Məclisinin sədri seçildikdən sonra Naxçıvan-Türkiyə münasibətləri yeni mərhələyə qədəm qoydu. Naxçıvanın həyatı tələbatını ödəmək, kommunikasiya əlaqələrini bərpa etmək üçün protokollar imzalandı.*